# MİLLİ MƏTBUATIN CƏMİYYƏTƏ TƏSİRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərəncamı ilə, Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edildi. Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə yaratdığı "Əkinçi" qəzetinin nəşri ilə Azərbaycanda Milli Mətbuatın əsası qoyuldu. "Əkinçi" qəzetinin fəaliyyəti nəticəsində Azərbaycanda maarifçilik möhkəmləndirilmiş, millətin qələm sahiblərinin, təfəkkürlü ziyalılarının qadın azadlığı və qadın təhsili məsələlərini təbliğ etməsinə, dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar etməsinə, dövrün ictimai-siyasi, eləcə də bədii düşüncənin inkişafına böyük təkanlar verməsinə geniş imkan yaranmışdır. Azərbaycan milli mətbuatının yaranmasının təməli olan Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin ətrafında Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani kimi ziyalılar cəm olmuşdu. "Əkinçi" qəzetinin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək 56 sayı işıq üzü görmüşdür. Böyük maarifpərvər ziyalı Həsən bəy Zərdabinin iki il ərzində 56 nömrəsi işıq üzü görən "Əkinçi" qəzeti Azərbaycan xalqını nadanlıqdan, savadsızlıqdan xilas etmək, ədəbi dilimizi inkişaf etdirmək, milli-mənəvi dəyərlərimizi qorumaq, ictimai şüuru formalaşdırmaq üçün çox böyük xidmətlər göstərmişdir. Azərbaycan cəmiyyətinin inkişafı və tərəqqisi üçün "Əkinçi" qəzetinin ətrafında dövrün mütərəqqi ziyalıları toplandı və qəzeti özləri üçün mübarizə mərkəzinə çevirdilər ki, xalqımızın milli oyanışına və milli birliyinin möhkəmlənməsinə nail ola bilsinlər. "Əkinçi" qəzeti mütərəqqi ideyaları ilə Azərbaycan mətbuatının ilk müjdəçisi oldu. Ondan sonra XIX əsrin sonlarında "Ziya", "Kəşkül", "Kaspi" qəzetləri, XX əsrin əvvəllərində isə "Molla Nəsrəddin", "Şərqi-rus", "Həyat", "Açıq söz", "Azərbaycan" kimi demokratik ruhlu, milli qayəli qəzetlər fəaliyyətə başladı. Milli mətbuatımızın azadlıq ideyalarının inkişaf etdirilməsində və müstəqilliyin möhkəmləndirilməsi prosesində böyük rolu danılmazdır. Azərbaycan xalqının milli dirçəliş dövrünə qədəm qoymasında, dövlət və dövlətçilik dəyərlərinin formalaşmasında, milli şüurun oyanışında, özünüdərk prosesində milli mətbuatın rolu çox böyük və danılmazdır. H. Əhmədov H. Zərdabinin yaradıcılığında maarifçilik baxışlarının Azərbaycan cəmiyyətinə təsirini olduqca geniş bir şəkildə şərh etmişdir. "Həsən bəy Azərbaycan ictimai-mədəni və pedaqoji mühitini qadın tərbiyəsinə və təliminə səfərbər etmək çağırışı ilə yanaşı özü də bu istiqamətdə əməli addımlar atmağa təşəbbüs gsstərmiş. Bakıda qızlar üçün rus-Azərbaycan məktəbi açmağa icazə almaqdan ötrü Bakı qubernatoruna müraciət etmişdi. H.Zərdabinin bu təşəbbüsü iflasa uğrasa da Azərbaycanda qız məktəblərinin təsis edilməsi barədə ideyaya ciddi stimul verdi. 1901-ci ildə H.Z.Tağıyevin rus-müsəlman qız məktəbi, sonrakı illərdə isə yeni-yeni qız məktəbləri fəaliyyətə bas?ladı. H.Z.Tağıyevin təsis etdiyi qız məktəbinin layihəsini də Həsən bəy tərtib etmişdi". Ulu öndər Heydər Əliyev Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında "Əkinçi" qəzetinin böyük rolunu daim yüksək qiymətləndirmişdir. Azərbaycan milli mətbuatı hər bir zaman cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü rolunu oynamışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan mətbuatının inkişafını Azərbaycanda fikir, söz və məlumat azadlığının bariz nümunəsi hesab edirdi. Milli mətbuatımızın inkişafı və təkmilləşdirilməsi məsələsi Prezident İlham Əliyevin daim diqqət mərkəzində saxladığı mövzudur. Azərbaycan milli mətbuatı maariflənmə, müasirləşmə, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması kimi məsələlərdə çox böyük xidmətlər göstərmişdir. "Əkinçi" qəzeti Şərq despotizminin, geriliyin əleyhinə çıxmış, mədəni inkişafı təbliğ edərək, milli mənlik şüurunun formalaşmasına yönəlik təhlillərin aparılması və onların geniş ideya fəaliyyətləri nəticəsində ictimai mədəni düşüncənin formalaşmasına şərait yaratmışdır. Azərbaycan mətbuat tarixinə adını qızıl hərflərlə yazdırmış "Əkinçi" qəzeti müstəmləkəçilik siyasətini, cəhaləti, geriliyi, sosial ədalətsizliyi pisləmiş, Azərbaycan mətbuatının sonrakı inkişafına böyük təsir göstərərək, Azərbaycanda maarifçi düşüncənin genişlənməsinə, xalqımızın milli-mədəni inkişafına öz töhfələrini vermişdir. Azərbaycan cəmiyyətində milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində Azərbaycan mətbuatının müstəsna rolu vardır. Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermiş Azərbaycan mətbuatı milli adət-ənənələrimizin, milli tariximizin, mədəniyyətimizin, dilimizin başlıca qoruyucusudur. Azərbaycan mətbuatında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi azad sözün, mətbuatın inkişafına ciddi təkan verərək, mətbuatın inkişafına dövlət qayğısını sübut edir. Fazil Qaraoğlu "Tarixdə iz buraxanlar: Həsən bəy Zərdabi" məqaləsində Həsən bəy Zərdabinin "Əkinçi" qəzetində Azərbaycan cəmiyyətinə aid fikirlərini geniş şəkildə analiz etmişdir. "İlk mətbu orqan kimi "Əkinçi" öz əsas ideyasına uyğun olaraq incəsənət və ədəbiyyata da aid yeni demokratik tələbləri irəli sürürdü. Azərbaycanın böyük dramaturqu Nəcəf bəy Vəzirov, köhnə şeirlərlə yanaşı, şairləri müasir həyatdan yazmağa, xalqı cəhalət və qəflət yuxusundan ayıltmağa, müasir ruhda tərbiyə etməyə çağırırdı. Bununla Zərdabinin səsinə Azərbaycanın bir çox görkəmli, maarifpərvər insanları səs verirdi. Təbii ki, bu cür demokratik məqalələrindən sonra çarizmin diqtəsi ilə özlərini "ziyalı" sayan bəzi üzdəniraq insanlar yerbəyerdən "Əkinçi" nin üzərinə hücuma keçirdilər. 1877-ci il sentyabr ayının 29-da "Əkinçi" qəzeti öz nəşrini dayandırmağa məcbur oldu. Azərbaycan milli mətbuatının ilk qaranquşu olan bu qəzet iki illik ömür yaşasa da, xalqın milli və müasir ruhda tərbiyə olunmasında çox böyük rol oynadı. Maarifçi və demokratik ideyaların carçısı olan "Əkinçi" realist Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərdi. Məhz buna görə də belə tərəqqipərvər qəzet mürtəce, işğalçı bir rejimin əsarəti altında çox yaşaya bilmədi. Çünki bu qəzet kəndlilərin ağır həyat şəraitini, onların yarıac-yarıtox dolanmalarını qabarıq şəkildə oxucuların nəzərinə çatdırırdı". Azərbaycanda söz və fikir azadlığının yaradılması, demokratiyanın inkişafı, azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, KİV-lərə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi kimi məsələlərin həlli yolunda görülən tədbirlər milli mətbuatın inkişafına göstərilən dövlət qayğısıdır. Azərbaycan Respublikasında çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunması və internet qəzetçiliyinin yüksək səviyyədə inkişaf etdirilməsi, informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatına dövlət qayğısının və diqqətinin sübutudur. Azərbaycanda söz və mətbuat azadlığının təmin olunması üçün dövlət tərəfindən məqsədyönlü şəkildə həyata keçirilmiş bir siyasət vardır. Bu siyasət nəticəsində Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin sayı artmışdır və milli mətbuatımız Azərbaycan xalqının maraqlarını daim müdafiə etmək, cəmiyyətimizin tərəqqisinə, dövlətimizin nüfuzunun daha da yüksəlməsinə öz töhfəsini vermək gücünü qoruyub inkişaf etdirməyə nail olmuşdur. Azərbaycanda siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir mətbu orqan dövlətçilik maraqlarını öndə saxlamalı, vətənpərvərlik ruhunun, vətəndaş həmrəyliyinin, milli şüurun formalaşmasına xidmət edərək, azərbaycançılıq amalına töhfə verməlidir. Azərbaycan cəmiyyətində demokratik, şəffaf informasiya mühitinin yaradılmasına Azərbaycan xalqıda öz töhfələrini daim vermişdir. Çünki demokratiyanın təməl prinsipləri olan söz və fikir azadlığının uca tutulduğu bir cəmiyyət bütün məsuliyyətli və şərəfli işlərin öhtəsindən gələrək, yeni-yeni uğurlara nail olacaqdır.

*Aytən MUSAYEVA,*
*AMEA Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutu*
*Biblioqrafiya şöbəsi*